# Milli Qurtuluş Gününə həsr olunmuş konfrans keçirilmişdir

**Tovuzda 15 İyun - Milli Qurtuluş Günü münasibətilə "Ulu Öndər Heydər Əliyevin xalqımız və tariximiz qarşısında ən böyük xidməti Azərbaycan dövlətçiliyini xilas etməsi olub" mövzusunda konfrans keçirilmişdir.**

Konfrans iştirakçıları Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət etmiş, önünə gül dəstələri qoymuşlar.

Tədbirdə rayon icra hakimiyyətnin başçısı Məmməd Məmmədov məruzə ilə çıxış edərək 15 İyun - Milli Qurtuluş Gününün tarixi əhəmiyyətindən danışaraq qeyd etmişdir ki, Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycanın qüdrətli dövlətə çevrilməsində misilsiz xidmətlər göstərmişdir: "Əgər 1993-cü il iyunun 15-də xalqın istəyi və tələbi ilə dövrümüzün müdrik və qətiyyətli dövlət xadimi Heydər Əliyevin hakimiyyətə qayıdışı gerçəkləşməsəydi, indi biz müstəqil, qüdrətli, yeniləşən Azərbaycan dövlətindən danışa bilməzdik. Bu qayıdış Azərbaycanın müstəqilliyini dünya müstəvisində reallığa çevirdi. Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, Ulu Öndər Heydər Əliyev hakimiyyətə gəlişi ilə milli birliyi təmin etdi və Azərbaycanın ən yeni tarixinə Milli Qurtuluş Günü kimi yazdı. Ümummilli Liderin milli maraqlara əsaslanan çoxşaxəli siyasət strategiyası bu gün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən zamanın tələblərinə uyğun zənginləşdirilməklə yüksək səviyyədə davam etdirilir".

Digər çıxış edənlər də Heydər Əliyevin Azərbaycanın müstəqilliyini təmin etmək, onu möhkəmləndirmək, ölkədə demokratik hüquqi dövlət qurmaq, köklü islahatlar aparmaq üçün həyata keçirdiyi tədbirlərdən danışmış, Ulu Öndərin xalqımız və tariximiz qarşısında ən böyük xidmətinin Azərbaycan dövlətçiliyini xilas etməsi və Azərbaycanı parçalanıb yox olmaq təhlükəsindən qurtarması olduğunu diqqətə çatdırmışlar.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 15 iyun, № 126.- S.5.